İlham ƏLİYEV: "Qarabağ Azərbaycandır və nida!"

10 oktyabr / 2020



Süleyman
ABDULLA

# Şəhid

*Üzü gecəyədir vaxt çatışmazlığı,*
*düşmənin cəbhə xəttində qurduğu oyunda üzləşdiyi*
*seytnotların sonunda bir ümidsizlikmi var,*
*ya güvənsizlikmi?..*
*Sizi bilmirəm,*
*mən bərk xəstələnmişdim döyüşlər başlayanda*
*sayıqlama kimi anlayırdım cəbhə xəbərlərini...*
*Gözlərimin qabağından uçuşan*
*işıldaböcəklər kimiydi yaylım atəşləri,*
*bədənim od içində olduğundan*
*hiss etməmişdim hərarətini atəşfəşanlığın.*
*Olur ki,*
*mərmi qəhqəhələrinin bəzilərini xatırlayıram,*
*bəzilərini yox...*
*Dəm ağıl kimidir xəbərlər, şad da gələr, bəd də*
*...Amma,*
*bilirəm, hardasa bir şəhid dəfn olunur,*
*hardasa bir cüt körpə əllərini uzadır "qayıt" deyə*
*bir insan selinin bulud-bulud uçurduğu*
*bir tabutun son yolçuluğuna sarı…*
*hardasa bir naçar ata üzünü sürtür bayrağa...*
*Anaların dərdi daha böyük, daha azman...*
*Həm də Vətən olmaq var analıq ucalığında,*
*söhbət vətəndən gedirsə, susmaq daha məsləhətdir...*
*diz çökmək, qan çilənən çiçəkləri öpmək!*
*Dava torpaq davasıdırsa sevinmək şəhidliyinə*
*...və sabahı gözləmək!*
*Biz zamanı öz axarına çevirməliyik,*
*vaxt çatışmazlığı deyə bir şey yox...*
*Gecənin tən yarısı üzü sabahlara bir atəş, -*
*üfüqlərə qan rəngində qələbə həkk edəsi...*
*Bu sənsənmi, şəhidim, işıq-işıq, al-qırmızı!..*